AQTA
AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

Food and Agriculture Organization of the United Nations

XIRDABUYNUZLU HEYVANLARIN TAUN XƏSTƏLİYİ



AZƏRBAYCANDA XIRDABUYNUZLU HEYVANLARIN TAUN XƏSTƏLİYİ QEYDƏ ALINMAYIB. ODUR Kİ, BU XƏSTƏLİYƏ QARŞI ÖLKƏMİZDƏ QOYUN VƏ KEÇİLƏR ARASINDA PEYVƏNDLƏMƏ TƏDBİRLƏRİ HƏYATA KEÇİRİLMİR!

XIRDABUYNUZLU HEYVANLARIN TAUN XƏSTƏLİYİ

(Peste des petits ruminants) - qoyun və keçilər arasında yüksək tələfata səbəb olan yoluxucu virus xəstəliyidir.

XƏSTƏLİYİN MƏNBƏYİ VƏ XƏSTƏLİYƏ YOLUXMA YOLLARI

- Xəstəlik törədicisi xarici mühit şəraitinə davamsız olmaqla, otaq temperaturunda 3-4 saat müddətində tələf olur.
- Xəstəliyin əsas mənbəyi xəstələnmiş və xəstəliyin inkubasiya dövründə olan heyvanlardır.
- Xəstə heyvan orqanizmindən virus ifrazatlar vasitəsilə ətraf mühitə yayılır.
- Xəstəlik törədicisi ilə yoluxma aerogen (hava-damcı), kontakt (təmas) və alimentar (yem, su və s.) yolla baş verir.



QOYUN VƏ KEÇİLƏRDƏ XƏSTƏLİYİN SİMPTOMLARI EYNİDİR:

- Yüksək hərarət;
- İştahın itməsi;
- Ağız və burun boşluqlarından selikli-serozlu və ya irinli axıntının müşahidə olunması;
- Ağız və burun boşluqlarında nekrotik yaralar;
- Tənəffüsün çətinləşməsi, öskürək və pnevmoniya (ağciyərlərin iltihabı) əlamətləri;
- Mədə-bağırsaq pozğunluğu və ishal.

XƏSTƏLİYİN GEDİŞATI

- Xəstəlik kəskin və yarımkəskin formalarda baş verməklə, heyvanların 50-100% ölümü ilə nəticələnir.
- Xəstəliyin inkubasiya dövrü 4-6 və bəzən 3-10 gün davam edir.
- Xəstəlik keçirmiş heyvanlarda davamlı immunitet yarandığı üçün təkrar yoluxma nadir hallarda baş verir.

Qoyun və keçilər arasında taun xəstəliyinə xas olan əlamətlər aşkar etdikdə həmin heyvanı təcrid edin və dərhal baytar həkiminə məlumat verin!

XƏSTƏLİYİN İQTİSADİ ZƏRƏRİ

- Xəstəliyin mövcudluğu ölkələrarası beynəlxalq ticarəti və heyvan mənşəli məhsul ixracını, həmçinin yeni heyvan cinslərinin ölkəyə idxalını məhdudlaşdırır.
- Xəstəlik intensiv heyvandarlıqda məhsuldarlığın kəskin şəkildə azalmasına səbəb olur.
- Xəstəlik nəticəsində heyvanlar arasında kütləvi tələfat baş verir.

XƏSTƏLİYƏ QARŞI PROFİLAKTİK TƏDBİRLƏR

- Təsərrüfatlarda kompleks baytarlıq-sanitariya tədbirləri həyata keçirilməlidir.
- Təsərrüfata gətirilmiş yeni heyvanlar karantində saxlanılmalıdır.
- Otlaqlarda heyvan sürüləri izolyasiya olunmuş şəkildə saxlanmalı, onların otarılması və suvarılması ayrı-ayrı təşkil olunmalıdır.

İNSANLAR XIRDABUYNUZLU HEYVANLARIN TAUN XƏSTƏLİYİNƏ YOLUXMUR!